Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Böyük satira  ustası Mirzə Ələkbər Sabir

**Böyük satira  ustası Mirzə Ələkbər Sabirin 160 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış  metodik vəsait**

**Bakı-2022**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar Mədəniyyət işçisi**

**Böyük satira ustası - Mirzə Ələkbər Sabir**in 160 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: R.Məmmədli; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2022.-44s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Giriş

M.Ə.Sabiri satirik şair adlandırırlar. Bu sözlərin doğruluğuna şübhə yoxdur. Amma bununla bərabər Sabir dünyanın ən faciəli şairidir. Onun kinayələrində də, gülüşlərində də, taziyanələrində də böyük xalq dərdi, nisgili var. Sabir gülüşü, yumoru, rişxəndi gülüş xətrinə yüngüllük naminə yaranmayıb. Bu satiralar xalq ağrı acılarına çarə tapmaq üçün bir dərmandır, şəfadır. Ona görə də M.Ə.Sabiri mahir bir loğmana, cərraha bənzətmək olar. Elə bir loğman ki, onun poeziya neştəri dərinlərə işlədikcə irinlər. Bəli, Mirzə Ələkbər Sabir milli inqilabi poeziyamızın banisi, əsl novator şar olmuşdur. O, xalqın və xalq həyatının nəğməkarı idi, bütün varlığı ilə xalqın müsibət və ələmlərini, ehtiyac və arzularını hiss edib duyur, ehtirasla qələmə alırdı. Sanki "Sabiri zaman və təbiət acı həqiqətləri şirin bir dil ilə demək üçün yaratmışdı. Onun fəlsəfəsinə gerçəklik özü diqtə edirdi. Bir sözlə Sabir düşüncələrə azadlıq verilməsini arzulayırdı. Bu il əməkçi insanların arzularının tərənnümçüsü M.Ə.Sabirin 160 yaşı tamam olur. Bu münasibətlə respublikamızın bütün mədəniyyət ocaqlarında, kitabxanalarda, məktəblərdə bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Biz də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elmi metodika şöbəsi olaraq həqiqət nəğməkarımız M.Ə.Sabirdən bəhs edən bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsaitin I hissəsi şairin həyat və yaradıcılığından bəhs edir. II hissədə isə dəyərli şairimizin xatirəsini əbədiləşdirmək məqsədilə kitabxanalarda keçirilən yubiley tədbirlərindən söhbət açılır.

## Həqiqət nəğməkarı, xalq dərdinin tərcümanı
## Mirzə Ələkbər Sabir

M.Ə.Sabir Azərbaycan ədəbiyyatına, ölkəmizin bütün çoxmillətli ədəbiyyatına yoxsulluğun və qüssə-kədərin, ehtiyac və arzuların nə olduğunu bütün varlığı ilə duymuş əsl xalq nəğməkarı kimi daxil olmuşdur.

**Ələkbər Zeynalabdin oğlu Tahirzadə** (Sabir) 1862-ci il 30 may-da Şamaxıda anadan olmuşdur. Atası kiçik baqqal dükanı olan dindar bir kişi idi və Ələkbəri gələcəkdə din xadimi kimi görmək istəyirdi. Buna görə oğlu səkkiz yaşına çatanda onu mollaxanaya qoymuşdu. Mollaxanada şagirdlərin ilk vəzifəsi Quranı oxumaq idi. Ancaq Ələkbər Quranı oxuyub başa vurmadan yazı yazdığı üçün mollası tərəfindən falaqqaya salınıb döyülmüşdü. Onu sıxan yalnız mollaxanadakı dözülməz qanun-qaydalar, maraqsız keçən dərslər idi. Evdə ata və anası mənasını və mahiyyətini başa salmadan səkkiz yaşlı oğullarını oruc tutmağa, namaz qılmağa məcbur edirdilər. Sabirin uşaq vaxtı yazdığı üç misralıq ilk şerində bu acı həqiqət çox təsirli ifadə olunur: "Tutdum orucu irəmazanda, Qaldı iki gözüm qazanda, Mollam da döyür yazı yazanda." Sabir 12 yaşına qədər dini düzgün anlamayan və təbliğ etməyən mövhumatçıların yanında oxumuş, sonra məşhur şair Seyid Əzimin açdığı yeni üsullu məktəbə keçmişdi. Bu məktəb onun üçün faydalı olmuş, xüsusilə biliyinin və şairlik istedadının inkişafına kömək etmişdir. Müəllimi Ələkbərə fars dilindən şerlər tərcümə etdirir, sonra bu tərcümələri oxuyub

ona məsləhətlər verir, məktəbli şairin yaradıcılıq həvəsini artırırdı. Seyid Əzim öz şagirdinin tərcümələri ilə bərabər, orijinal şerlərini də oxuyub redaktə edirmiş. Lakin bir-iki il sonra atası Ələkbəri təhsildən ayırıb öz dükanında köməkçi işlədir. Ancaq elmə və ədəbiyyata həvəsi sönməyən gənc yenə oxuyub yazmağında davam edir. Dostu Abbas Səhhətin yazdığına görə, Sabir alış-verişdən ziyadə oxuyub-yazmağa həvəs göstərdiyi üçün atası hirslənib tez-tez onu məzəmmət edirmiş: hətta bir dəfə şeir dəftərini də cırıbmış. Atasının bu hərəkəti gənc Sabirə ağır təsir etsə də, onu mütaliədən və şeir yazmaqdan çəkindirə bilmir. Əksinə, bu münasibətlə yazdığı bir qitəsində o, şeir dəftərinin atası tərəfindən cırılmasına cavab olaraq şairlikdən əl çəkməyəcəyini, atası onu bir də incidərsə, Şamaxıdan çıxıb gedəcəyini qeyd edir. Doğrudan da, Sabir atasının verdiyi əzab-əziyyətdən xilas olmaq üçün 1885-ci idə ziyarət adı ilə səyahətə çıxıb, Orta Asiyaya, oradan da İrana gedir. O, Səbzivar, Nişapur, Səmərqənd, Buxara, Xorasan və başqa şəhərləri gəzir. Bir tərəfdən yerli feodal və ruhani ağaların taladığı bu yerlərin yoxsulluğu və cəhaləti şairə ağır təsir bağışlayırsa, o biri tərəfdən bu şəhərlərdə tərəqqipərvər alim və yazıçılarla görüşüb tanış olur. İlk səfərindən qayıdandan sonra 1887-ci ildə o, qohumlarından olan Büllurnisə adlı qızla evlənir. On beş il ərzində onun 8 qızı, bir oğlu dünyaya gəlmişdir. Belə böyük ailə sahibi olmaq Sabirin vəziyyətini olduqca çətinləşdirmişdi. Başqa bir sənəti olmayan şair ailəsini dolandırmaq üçün sabun bişirib satır, ailəsini çox çətinliklə dolandırırdı. Buna baxmayaraq o, yenə dövrünün qabaqcıl

ziyalıları ilə əlaqə saxlayır, bədii yaradıcılıqla məşğul olurdu. 1902-ci ildə baş vermiş dəhşətli zəlzələ Şamaxını tar-mar etmişdi. Yanğın nəticəsində şəhərdə yüzlərcə imarət yanıb külə dönmüş, əhalinin çox qismi evsiz-eşiksiz, quru yerdə qalmışdı. Bu zaman Sabirin evi də dağılmışdı. Şair tək başına böyük bir çətinliklə ailəsi üçün müvəqqəti bir daxma düzəltmişdi. Xatirələrdə deyilir ki, çox fədakar, qayğıkeş, mehriban ailə başçısı olan Sabir uşaqlarının yalnız maddi ehtiyacını deyil, mənəvi rahatlıq və tərəqqisini də təmin etməyə çalışmışdır. O, arvadını və qızını savadlı görmək istəyir, onlara əlifba öyrədirmiş. XIX əsrin sonu, XX əsrin ilk illərində ağır ailə qayğısı çəkən Sabir şerdən bir qədər uzaqlaşsa da, tamam ayrılmamışdı. 1901-ci ildə Şamaxıya qayıdan Abbas Səhhətin bu zaman onu mənəvi cəhətdən böyük köməyi dəymişdi. Onlar boş vaxtlarında Şamaxının o zamankı ziyalılarından Ağəli Bəy Nasəh və Məhəmməd Tərrahla kiçik bir ədəbi məclis düzəldib, axşamlar klassik şairlərin və ya özlərinin şerlərini oxuyub təhlil və müzakirə edirdilər. XX əsrin əvvəllərindən başlayaraq Sabirin şerləri mətbuat səhifələrində görünür. 1903-cü ildə "Şərqi-Rus" qəzetində, bir qədər sonra isə o,"Həyat" qəzetində şeirləri çap olunur. M.Ə.Sabir 1906-cı ildə "Molla Nəsrəddin" jurnalını öz arzularına müvafiq həqiqi bir xalq jurnalı kimi qarşılayıb onun ən sevimli şairi, ən fəal müəlliflərindən biri oldu. Bu zamandan Cəlil Məmmədquluzadə ilə Sabir arasında qırılmaz dostluq münasibətləri yarandı. Hər iki sənətkar əməkçi xalqın qanını soran zalım ağalara, yaltaq ruhanilərə, satqın ziyalılara sarsıdıcı zərbələr vururdu. Bütün bunların nəticəsi olaraq Sabir

özünə çoxlu dost qazandığı kimi, düşmən də qazanmışdı. Şerlərini gizli imzalarla yazmasına baxmayaraq, istər Şamaxıda və Bakıda, istərsə də Azərbaycanın başqa yerlərində və İranda bir çox irticaçılar şairin əsərlərini pisləyir, onun yazdığını oxuyanları kafir elan edirdilər. Hətta bəzən cahil "din xadimləri" Sabirin ölümünə fitva verir, varlılar ona hədələyici məktublar göndərir, qoçular küçədə yolunu kəsib ağır sözlər deyirdilər. 1907-ci ilin əvvəllərində Sabir mətbuat və maarif sahəsində çalışmaq, şer yaradıcılığını daha müntəzəm davam etdirmək qərarına gəlir. O, Bakıya gəlib bir müddət "İrşad" qəzetinin redaksiyasında korrektor işləyir və müəllimlik imtiyazı əldə etmək üçün imtahan verməyə hazırlaşır. Bu arada Qori Müəllimlər Seminariyasında işləyən müəllim dostlarından bir neçə fərəhli məktub alır. Həmin məktublarda deyirdi ki, yaxın zamanlarda seminariyanın Azərbaycan şöbəsində müəllim yeri boşalacaqdır. Dostları şairə həmin yeri tutmaq üçün təşəbbüs etməyi məsləhət görür və bu işdə ona kömək edəcəklərini bildirir. 1908-ci il aprelin 11-də Bakı quberniya ruhani idarəsində imtahan verən şair mayın 7-də Tiflisə gedib, Qafqaz şeyxülislamı idarəsindən ana dili və şəriət müəllimi diplomu alır. Lakin Qoridən aldığı bir məktubdan sonra o, seminariyadan ümidini kəsməli olur. Bir müddət şair Şamaxı məktəblərindən birində köməkçi müəllim sifətilə dərs deyir. Müəllim yoldaşları onun dərin bilik və pedaqoji ustalıqla verdiyi dərsləri çox bəyənirlər.

Həmin ilin sentyabr ayında Sabir çoxdan arzuladığı "Ümid" məktəbini açmağa müvəffəq olur. Bu məktəbdə 60-a

qədər şagird oxuyurdu. Yeni üsüldə olan başqa məktəblərdəki kimi burada da şagirdlər skamyada oturur, əyani vəsaitlərdən istifadə edir, ekskursiyaya çıxırdılar. Məktəbdə ana dili, fars dili, hesab, coğrafiya və təbiətə dair məlumat verilir, Quran və şəriət dərsləri tədris edilirdi.

1910-cu ilin əvvəllərində Sabir Bakıya işləməyə gəlir. Əvvəlcə "Zənbur" jurnalının redaksiyasında çalışır. Az sonra Balaxanıdakı "Nicat" məktəbində böyük həvəslə dərs deməyə başlayır. Müəllimliyi ilə bərabər, şair Balaxanı neft mədənlərində işləyən fəhlələrə, yerli inqilabçılara yaxınlaşaraq, onların açdıqları "Nur" kitabxanasının fəal üzvü olur. O ilin yazından Sabir Bakıda çıxan "Günəş" və "Həqiqət" qəzetlərinin redaksiyasında işləyir. "Günəş" qəzeti hər həftənin cümə günü "Palanduz" sərlövhəsi ilə gülüş səhifəsi buraxırdı. Sabir bu səhifədə "Nizədar" və "Çuvalduz" imzaları ilə müntəzəm surətdə ifşaçı əsərlər çap etdirir. Şair eyni zamanda "Molla Nəsrəddin"ə də yazmaqda davam edir. Aylarla ehtiyac içində, işsiz, əzab-əziyyətlə dolanan böyük şair 1910-cu ilin axırlarında ciyər xəstəliyinə tutulub, Şamaxıya qayıdır. 1911-ci ilin may ayında o, müalicə üçün Tiflisə gedib, dostu C.Məmmədquluzadənin evində yatır. "Molla Nəsrəddin"in əməkdaşları şairə böyük qayğıkeşlik göstərirlər. Xəstəliyinin getdikcə şiddətləndiyinə baxmayaraq, Sabir yenə şer yazmağa davam edir, yeni-yeni taziyanələr üzərində işləyir, "Molla Nəsrəddin" jurnalının redaksiya işlərinə yaxından kömək edir. İyun ayında həkimlər şairə cərrahiyə əməliyyatı aparmağı təklif edirlər. Lakin xəstə buna razı

olmur. O, Şamaxıya qayıdır. Axır günlərindən birində şair deyir:

İstərəm ölməyi mən, leyk qaçar məndən əcəl,
Gör nə bədbəxtəm, əcəldən də gərək naz çəkəm!

"Molla Nəsrəddin" jurnalı 1911-ci il 14-cü sayında xəstə şairə maddi yardım etməyə çağıran bir elan dərc edir. Bu elandan sonra Rusiyanın və Şərqin bir çox şəhərlərindən onlarla oxucu böyük xalq şairinə məhəbbət və hörmət əlaməti olaraq "Molla Nəsrəddin"in ünvanına ianə göndərirlər. Xəstəliyinin çox şiddətləndiyini və ona başqa bir əlac olmayacağını görən şair cərrahiyə əməlliyatına razı olub, iyulun 8-də Bakıya gəlir. Lakin artıq həkimlər cərrahiyənin də heç bir fayda verməyəcəyini söyləyərək, ona tez Şamaxıya qayıtmağı məsləhət görürlər. Jurnalist H.Qasımov xəstə şairlə Bakıda son görüşünü xatırlayaraq yazır: "...Qəzetdə yazarsan, Sabir deyirdi ki, mən vücüdumda olan ətimi xalqımın yolunda çürütdüm. Əgər ömür vəfa etsəydi, sümüklərimi də xalqımın yolunda qoyardım". 1911-ci il iyulun 12-də, həyatının və yaradıcılığının ən parlaq bir vaxtında Sabir vəfat edir. Şairin cənazəsi Şamaxıda "Yeddi günbəz qəbiristanı"nda dəfn olunur. Sabirin xatirəsinə hörmət əlaməti olaraq vəfatından bir il sonra, 1912-ci ildə arvadı Büllurnisə xanım, dostları Abbas Səhhət və M.Mahmudbəyovun səyi ilə onun şerləri "Hophopnamə" adı ilə çap olundu. Oxucular kitabı hərarətlə qarşıladılar. İki il sonra xalqın ianəsilə "Hophopnamə"nin ikinci, daha mükəmməl nəşri buraxıldı.

## Görkəmli şəxsiyyətlərin Mirzə Ələkbər Sabir haqqında söylədikləri kəlamlar

Bizim XX əsr ədəbiyyatşünaslığında ən fəxr etdiyimiz şəxsiyyətlər Sabirdir, C.Məmmədquluzadədir.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Mirzə Ələkbər Sabir çoxəsrlik poeziyamızın parlaq ənənələrini layiqincə yaşatmaqla bərabər, ədəbiyyatımızı keyfiyyətcə yeni mərhələyə yüksəldərək onu ictimai məfkurə baxımından daha da zənginləşdirən söz ustası kimi geniş şöhrət tapmışdır.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Sabirin satirası kapitalist və mülkədarların zülmü altında inləyən fəhlə və kəndlinin iztirablı həyat şəraitinin təcəssümüdür və şairin böyüklüyü orasındadır ki, o, öz mübariz satirasını çar irticasının ağır illərində yaratmışdır. Sabir bütün şeirlərində zalimlərə zərbə vurmuş, məzlumların dadına çatmaq istəmişdir. Bu əsrdə onun qədər inqilaba, öz xalqına yaxın olan ikinci bir qələm sahibi tapılmaz! Sabir fəhlə və kəndli sinfinin ağa və mülkədar zülmü altında çəkdiyi məşəqqətləri əyani və canlı şəkildə göstərən şairdir.

**Nəriman Nərimanov,**
*ictimai-siyasi xadim, yazıçı*

Mən Sabiri Tiflisdən Şamaxıya, yəni məzari-ədəmə doğru yollandığı sırada görmüşdüm. O, lətif və düşgün sima hala gözümün önündə təcəssüm edib duruyor. Qafqaz öylə nadir vücuda pək çətinliklə malik ola bilər.

**Hüseyn Cavid,**
*yazıçı-dramaturq*

Sabir, o günləri gətirmə yada, Dünya unutmamış səni dünyada...

**Səməd Vurğun,**
*Xalq şairi*

“Hophopnamə”nin döymədiyi qapı, girmədiyi ev qalmadı, onu oxuyanlar da sevdi, oxudanlar da. Zamanında heç bir şair özünü böyük Sabir qədər xalqa sevdirməmişdir.

**Abdulla Şaiq,**
*şair, yazıçı, publisist*

Sabir köhnə şeirlə yeni şeir arasında bir əsrlik qədər uçurum açdı ki, bir daha geri dönüb də, o uçurumu atlanmağa kimsədə cürət və cəsarət qalmadı. Sabirin əsərləri İran məşrutəsinə bir ordudan artıq xidmət etmişdir. Bir kərə düşünülsün, ədəbiyyatımızda nə qədər böyük təsir, nə qədər əzim bir inqilab vücuda gətirmiş!...

**Abbas Səhhət,**
*şair, dramaturq, tərcüməçi*

Sabir filosofdur, mürəbbidir, inqilabçıdır hamısında da səmimidir.

**Yusif Vəzir Çəmənzəminli,**
*dövlət xadimi, yazıçı*

Sabirin heykəlinə baxıram. Sanki mən Sabirin heykəlini deyil, vaxtilə hər şeirini bir məşəl kimi qaldıran Sabirin özünü gördüm.

**Süleyman Rəhimov,**
*Xalq yazıçısı*

Sabir yalnız Azərbaycanın deyil, Orta Asiyanın, Yaxın Şərqin ən böyük, ən görkəmli şairlərindən biridir. Sabiri əslindən oxuyub anlaya bildiyim üçün qəlbimdə sevinc duyuram. Sabirin azadlıq, xalq mənafeyi, demokratiya uğrunda istibdada, dərəbəyliyə, qara qüvvələrə və burjua liberalizminə qarşı apardığı mübarizə mənim vətənimdə eyni yolda döyüşənlər üçün sınanmış bir silahdır... 1908-ci il inqilabından əvvəl və sonra Sabir Türkiyədə yalnız tərəqqipərvər ziyalılar arasında deyil, xalq kütlələri arasında məhəbbətlə, həyəcanla oxunan bir şair idi... Sabir bu gün də Türkiyə xalqının milli istiqlaliyyət, demokraiya, azadlıq uğrunda apardığı mübarizənin ön sıralarında döyüşməkdədir. Biz, Türkiyənin həqiqi demokratları Sabiri öz ustadlarından biri hesab edirlər.

**Nazim Hikmət,**
*türk şairi,*

Beynəlxalq Sülh mükafatı laureatı Həcvləri ilə xalq həyatını yüngülləşdirib təhzib-əxlaqa xidmət edəcək bir həcvi ancaq Sabir yarada bilmiş, məzhəkənəvisliyin yeni dövrü ancaq Sabirdən başlanmışdır.

**Məmməd Səid Ordubadi,**
*nasir, şair, dramaturq*

Zəngin yaradıcılıq ənənələri və böyük tarixi olan Azərbaycan poeziyası əsrlərin qoynunda bir dağ silsiləsi kimi yüksəlirsə, Mirzə Ələkbər Sabir onun ən uca, ən işıqlı və əzəmətli zirvələrindən biridir.

**Mirzə İbrahimov,**

*Xalq yazıçısı,*

Sabirin hansı mənzuməsini alırsınız alınız, o, sizin üçün tarixi bir sənəddir. O elə bir sənəddir ki, 1906-1911-ci illərdəki xalqımızın əhvali-ruhiyyəsi, ictimai həyatı, düşüncəsi tamamilə onda nəzərimizə çarpacaqdır. Sabir şairliyi, sənətkarlığı xalqın intibahı uğrunda çalışmaqdan, onu qəflət yuxusundan ayıltmaqdan ibarət bilmişdir.

**Seyid Hüseyn,**

*yazıçı, tənqidçi, pedaqoq*

Fikir və məsləkində sabit olan şairimiz Sabir bir dəqiqə durmayıb, diriliyimizin hər bucağını işıqlandırmaqda və yatmışları oyatmaqda idi.

**Tağı Şahbazi Simurğ,**

*yazıçı, publisist, pedaqoq*

Sabirin şeirləri içərisində elə parçalara rast gəlirik ki, onlar bizim vicdanımıza nüfuz edir.

**Seyid Cəfər Pişəvəri,**

*ictimai xadim*

Sabir yeni ədəbiyyatımızın rəhbəri, acı-acı gülüşləri ilə öz xalqını oyadan bir şair idi.

**Məmmədhəsən Hacınski,**
*ictimai xadim, memar*

Sabirin əsərləri o qədər sadə, rəvan, xəlqi, aqilanə və qorxmaz ruhdadır ki, azadlıq sevən hər bir insanın ürəyinə yol tapır. Bu səpkidə müstəqil əsərlər yazmaqda mənə Sabir yol göstərmişdir. Bu sahədə mən onun ustalığına minnətdaram. İranın digər satirikləri də mənim kimi. Orta Asiyanı dolaşdığım illərdə gördüm ki, o yerlərin satirik əsərləri də qətiyyən Sabir təsirindən xaricdə deyildir.

**Əbülqasım Lahuti,**
*satirik şair*

Təsvir etdiyi hadisə və insanların xarakterindən, daha doğrusu inqilabın yüksəlib, enməsindən asılı olaraq Sabirin sözləri də müxtəlif qammalarda səslənirdi. Onun əsərlərində gah inqilabçıların qələbəsinin təsviri, sevinc, fərəh, gah təhlükə gözlənilməsi ilə əlaqədar olaraq təşviş, gah da məğlubiyyət nəticəsində əmələ gələn qüssə, qəmginlik hiss edilir.

**Əziz Mirəhmədov,**
*Əməkdar elm xadimi*

Yubilyarın yaradıcılığını, qələmə aldığı kitabları oxuculara çatdırmaq, təbliğ etmək məqsədilə kitabxanada sərgilərin təşkili vacibdir. Sərgidə yubilyarın kitabları ilə yanaşı haqqında qələmə alınmış yazılar, dövrü mətbuat materialları da yer alır. Həmçinin sərginin daha dolğun görünməsi və bədii tərtibat cəhətdən diqqəti cəlb etməsi məqsədilə onun şeirlərindən parçaları sitat vermək olar. Sərgiyə müxtəlif başlıqlar verilir. Məsələn: ***"Mənavi sərvətimiz Mirzə Ələkbər Sabir", "Əsrinin haq səsi", "Həqiqət nəğməkarı", "Xalq dərdinin tərcümanı", "Dahilər bir əsrdə doğulsalar da bütün əsrlərdə yaşayırlar", "Böyük satira ustası M.Ə.Sabir", "Şairəm əsrimin ayinəsiyəm!", "Mirzə Ələkbər Sabirin satira sənətkarlığı", "Bənzərəm bir qocaman dağa ki...", "Əməkçi insanın arzularının tərənnümçüsü", "Xalqın oğlu və nəğməkarı", "Rübabını xalqına həsr etmiş şair"*** və s.

https://drive.google.com/file/d/1dwY1iYo8dr8krQUEror7S3EmiUpUKgay/view

https://drive.google.com/file/d/1mLY_lHFkRn9pwJEe0bvRbiJymkbhhR4W/view

https://drive.google.com/file/d/1K5vr1rqNTkrNJlwjjTd2JzuFkZxtAnXD/view

https://drive.google.com/file/d/1JbbI5ZiqahbF3Li7WHU-m-45qOFcevtK/view

https://drive.google.com/file/d/1VOBpbXiiPe0qRXVChnWu5pNm_2j3HWE4/view




Kitabxanada təşkil olunmuş sərginin ətrafında kitabxanaçı həqiqət nəğməkarı M.Ə.Sabirin yaradıcılığı haqqında oxuculara ətraflı məlumat verə bilər.


















BƏKİR NƏBİYEV
ŞAMAXI TORPAĞININ YETİRDİYİ
BÖYÜK AZƏRBAYCAN ŞAİRLƏRİ


SABİR
TƏSVİRİ
SƏNƏTDƏ


САБИР
КҮЛҮР


TƏRLAN NOVRUZOV
SABİRŞÜNASLIQ
AZƏRBAYCANDA
VƏ XARİCDƏ


150
M.Ə. SABİR
HAQQINDA
TƏDQİQLƏR


АКИФ ӘЛИ
М.Ә.САБИРИН
САТИРА СӘНӘТКАРЛЫҒЫ


MƏNİM İLK KİTABIM
DƏRSƏ GEDƏN
BİR UŞAQ
ALTUN KİTAB


Mirzə Ələkbər
Sabir
Məktəb
şagirdlərinə
töhfə


MİRZƏ
ƏLƏKBƏR
SABİR
XATİRƏLƏR
"XAN" XATİRƏ ƏDƏBİYYATI 19


МИРЗӘ ИБРАҺИМОВ
БӨЈҮК САТИРА УСТАСЫ


YAVUZ AXUNDLU
MƏNİM ƏDƏBİ DÜNYAM


Мирзә Әләкбәр Сабир


Kamran Məmmədov
Azərbaycan yazıçılarının həyatından dəqiqələr


Камран Мәммәдов
XX әср
АЗӘРБАЈЧАН КҮЛҮШҮ


Мәммәд Мәммәдов
САБИР
мүбаһисәләр, һәгигәтләр


МӘКТӘБ КИТАБХАНАСЫ
М. Ә. САБИР
СЕЧИЛМИШ ӘСӘРЛӘРИ


мәммәд мәммәдов
Сабир
вә мәтбуат
БАКЫ—1974


САБИР
ВӘ МУАСИРЛӘРИ
АББАС ЗАМАНОВ

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "***"Rübabını xalqına həsr etmiş şair"*** adlı ***oxucu konfransı*** da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı M.Ə.Sabirin yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir.

Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (M.Ə.Sabirin həyat və yaradıcılığı haqqında məruzə)
2. M.Ə.Sabirin yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və şairlərin çıxışları.
3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Sabirin müxtəlif əsərləri ətrafında müzakirələri. Şairin şeirləri, qəzəlləri söylənilir.
4. Konfransın yekunu.

Mirzə Ələkbər Sabirin 160 illik yubileyi münasibətilə kitabxanada respublikanın ümumi təhsil məktəblərinin şagirdləri arasında "Böyük Azərbaycan şairi Mirzə Ələkbər Sabir haqqında düşüncələrim" mövzusunda ***inşa yazı müsabiqəsi*** təşkil etmək olar. Bu məqsədlə kitabxananın girəcəyində keçiriləcək müsabiqənin elanı asılır. Orada tədbirin keçirilməsi ilə bağlı bütün şərtlər göstərilir. Müsabiqəyə hazırlıq məqsədilə bir həftə əvvəldən məktəblilər şairin həyat və yaradıcılığından bəhs edən kitabları oxuyub,

bilgi toplayırlar. Müsabiqə təyin olunmuş vaxtda keçirilir. Müsabiqənin qalibləri kitabxananın müdriyyəti tərəfindən mükafatlandırılır. Müsabiqədə tədbirlə bağlı məlumatlar uşaq qəzetlərində, radio verilişlərində verilərsə daha yaxşı olar. Bildiyimiz kimi, Sabir poeziyası oxucuların mənən zənginləşməsinə alovlu çağırışdır. Bu məqsədlə kitabxanada yubilyarın xatirəsinə hörmət əlaməti olaraq, məktəbli oxucularımız arasında ***"Sabir poeziyası günləri"*** başlığı altında poeziya həftəsi təşkil etmək olar. Tədbirin təşkili zamanı şeirlərin bölgüsü yaş xüsusiyyəti nəzərə alınaraq bölünür. Tədbir zamanı kitabxanaçı uşaqlara müəllifin ictimai-siyasi və fəlsəfi lirikası, növhə və mərsiyələri, şairin qəzəlləri, satiraları, uşaqlar üçün qələmə aldığı şeirlər, mənzum hekayə və təmsilləri, hekayə və felyetonları ilə maraqlanmalarını, bu mövzuda mütaliə etmələrini məsləhət görür. Həftə boyu M.Ə.Sabirin şeirlərində təsvir edilən keçmişin mənzərələri qonaqların gözləri qarşısında canlanır. Bu kimi tədbirlərin keçirilməsi xalqın öz qeyrətli oğluna və nəğməkarına dərin ehtiramın daha bir təsirli təzahürü olar. Bu tədbir sayəsində oxucular dərk edirlər ki, Sabir poeziyası bütün binəsiblər və müdafiəsiz adamlar haqqında heç də təkcə qüssə-kədər və iztirab deyildir. Sabir poeziyası həm də inqilabi mübarizəyə alovlu çağırışdır. M.Ə.Sabirin yaradıcılığına boylananda onun gələcəyimiz olan uşaqlar üçün yazdığı çox gözəl şeirləri görürük. Məsələn: "Uşaq və buz", "Yaz günləri", "Məktəb sərgisi", Elmə tərğib", "Məktəbə tərğib", "Ağacların bəhsi", "Cütcü", Qarğa və tülkü", "Məktəb uşaqlarına töhfə", "Məktəb şagirdlərinə töhfə", "Təbib ilə xəstə", "Qoca

bağban", "Uşaq və pul", "Qarınca", "Molla Nəsrəddinin yorğanı", "Camuşçu və sel", "Molla Nəsrəddin və oğru", Hörümçək və ipəkqurdu", Yalançı çoban","Uşaqlara" və s. Dəyərli şairimizin 160 illik yubileyi münasibətilə kitabxanada aşağı sinif şagirdləri arasında şeir müsabiqəsi təşkil etmək olar. Müsabiqə zamanı münsiflər heyyətinə tanınmış ədbiyyat müəllimləri, incəsənət adamları, aktyorlar dəvət olunur. Şeiri ən yaxşı intonasiya ilə səsləndirən oxucu kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılır.
*Şeirlərdən bir neçəsini sizə təqdim edirik.*

**Mirzə Ələkbər Sabir. "Cütcü"**



Çıxdı günəş, doldu cəhan nur ilə,
Cütcü sürür tarlada cüt şur ilə.

Atlar, öküzlər kotana güc verir,
Gah yürüyür, gah yıxılır, gah durur.

Cütcü batıb qan-tərə, yer şumlayır,
Şumladığı tarlasını tumlayır.

Olsa da artıq nə qədər zəhməti -
İşləməyə var o qədər qeyrəti.

Çünki bilir rahət əziyyətdədir,
Şad yaşamaq səydə, qeyrətdədir.

İndi əgərçi ona zəhmət olar,

Qışda əyali, özü rahət bular:

Cəm edəcək tarlasının hasilin,
Bəsləyəcək ailəsin, həm elin.

***Gəl, gəl, a yaz günləri***



Gəl, gəl, a yaz günləri,
İlin əziz günləri.
Dağda ərit qarları,
Bağda ərit qarları.
Çaylar daşıb sel olsun,
Taxıllar tel-tel olsun.
Ağaclar açsın çiçək,
Yarpağı ləçək-ləçək.

https://www.youtube.com/watch?v=h-DpIG1P41s

***Uşaq və buz***




Dərsə gedən bir uşaq,
Çıxdı buz üstə qoçaq;
Sürüşdü birdən-birə,
Düşdü üz üstə yerə.
Durdu uşaq neylədi?
Buza belə söylədi:
"Sən nə yamansan, a buz?
Adam yıxansan, a buz!
Az qalıb ömrün sənin,
Yaz gələr, artar qəmin,
Əriyib suya dönərsən,
Axıb çaya gedərsən!"

***https://www.youtube.com/watch?v=-9UxWlf45bM***

MƏKTƏBƏ TƏRĞİB

Mənim bağım, baharım!
Fikri ziyalı oğlum!
Məktəb zamanı gəldi,
Dur, ey vəfalı oğlum!
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!
Gün çıxdı, sübh açıldı
Qaranlıqlar qaçıldı.
Pəncərədən gün düşdü,
Otaqlara saçıldı:
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!
Oğul, oğul, amandır,
Çox yuxlamaq yamandır!..
Çox yuxlamaq - şeytandan,
Tez durmaq,- Allahdandır.
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!
Nəsihət al, nəsihət,
Qıl kəsbi-elmə qeyrət!
Elmsizlik bəlası
Müşkül olur, həqiqət.
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!
Məktəbə var şərafət,
Dəftərdə var lətafət.
Cari olur qələmdən
Şirin-şirin hekayət.
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!



Allah olsun sədiqin,
Məktəb sənin şəfiqin,
Dur məktəbə get, oğlum!
Dəftər sənin rəfiqin.
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!
Elm öyrən, imtahan ver,
Öz fəzlini nişan ver.
Qədrin bil elmi fəzlin,
Elmin yolunda can ver.
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!

***Həmçinin yubileylə əlaqədar kitabxananın nağıl otağında uşaqlar dahi satirik şairimizin təmsillərini səhnəcik şəklində təqdim edə bilərlər. Bunun üçün nağıl otağı təmsilə uyğun dekorasiyalarla bəzədilir. Uşaqlar təmsilə uyğun geyimlərdə səhnəyə çıxırlar. Aparıcı sözə başlayır:***

***Qarğa və tülkü***



**Aparıcı:** Pendir ağzında bir qara qarğa,
Uçaraq qondu bir uca budağa.
Tülkü görcək yavaş-yavaş gəldi,
Əndərib baş, ədəblə çömbəldi.
Bir zaman həsrət ilə qarğa sarı,
Altdan-altdan marıtdı baş yuxarı.

**Tülkü:** Əhsən sənə, a qarğa ağa!
Nə nəzakətlə qonmusan budağa?!
Bəzədin sən bu gün bizim çəməni,
Şad qıldın bu gəlməyinlə məni.
Nə gözəlsən, nə xoşliqasan sən!
Yeri var söyləsəm, hümasan sən.

Tüklərindir ipək kimi parlaq,
Bədnəzərdən vücudun olsun iraq!..
Bu yəqindir ki, var sevimli səsin,
Oxu, versin mənə səfa nəfəsin...

**Aparıcı:** ...Böylə sözdən fərəhlənib qarğa,
Ağzını açdı ta ki, etsin-«ğa!»
"Ğa" edərkən hənuz bircə kərə,
Pendiri dimdiyindən endi yerə.
Tülki fövrən havada qapdı yedi,
Qarğaya tənə ilə böylə dedi:

**Tülkü:** Olmasaydı cahanda sarsaqlar,
Ac qalardı yəqin ki, yaltaqlar!

https://www.youtube.com/watch?v=KBp-np4IWc4

## *Ağacların söhbəti*




**Aparıcı:** Alma, palıd, şam ağacı hal ilə,
Eylədilər bəhs bu minval ilə:
Başladı tərifə palıd qamətin,
Öydü özün, zorbalığın, halətin.
Yetməz olur-söylədi-dağlar mənə,

**Palıd:** Layiq olur fəxr edə bağlar mənə.
Az qala başım yetişə göylərə,
Şax budağım kölgə salır hər yerə.
Əssə külək, qopsa da tufan yenə,
Əyməyə əsla gücü çatmaz mənə.
Canlıcadır, zorbacadır baldırım,

Sındıra bilməz məni heç ildırım!

***Aparıcı:*** *Alma ağacı ona verdi cavab:*



**Alma:** Eyləmə tərif özünü, ey cənab!
Zorbadır hərçənd ki, qəddin sənin,
Yox mənə tay olmağa həddin sənin!
Səndə bitir bir neçə vecsiz qoza,
Ancaq o da qismət olur donquza.
Məndə vəli, yaxşı, gözəl alma var,
Rəngini hər kim görə heyran qalar.
Dadlı, lətafətli, məlahətlidir,
Saplağı incə, özü ləzzətlidir...

***Aparıcı:****Şam ağacı bildi bu keyfiyyəti, söylədi:*

**Şam ağacı:**- Bəsdir, buraxın söhbəti,
Boş danışıqdan nə çıxar, ay balam.
Qış günü siz çılpaq olursuz tamam,
Leyk mənim qışda dəxi yaz kimi,
Yaşıl olur paltarım atlas kimi.
Lazımam ev tikdirən insanlara,
Həm dirəyəm, həm qapı eyvanlara.
Qış sobada xalq məni yandirar,
Mənfəətim xalqa mənim çox dəyər...
https://www.youtube.com/watch?v=aM9FcPAAC2I

*Hörümçək və ipəkqurdu*




**Aparıcı:** Bir hörümçək özün çəkib durdu, dedi fəxr ilə:

**Hörümçək:** Ey ipək qurdu!
Nə xəsilətlə iş görürsən sən,
Niyə bunca ağır hörürsən sən?!
Gəl mənim sənətimdə sürətimi
Görüb iqrar qıl məharətimi.
İşə gircək tamamını hörürəm,
Az zaman necə çox iş görürəm?!

**Aparıcı:** Baxdı, güldü ona ipək qurdu,
Sərzəniş etdi, tənələr vurdu, dedi:

**İpək qurdu:** Bərfərz olsa, hər yerdə
Toxuyarsan böyük, kiçik pərdə.
De görüm, onların nədir səməri?
Bəlkə də hər kəsə çatır zərəri.
Leyk məndə yox isə də sürət,
Yapdığım işdə var ağır qiymət.
Aləmə faidə verir karım,
Hər kəs istər ola xəridarım.
https://www.youtube.com/watch?v=T3kGRR1kIr4

Göstərilən səhnəciklərin sonunda oxuculara bu təmsillərdən bəhs edən rəsmlər çəkmələri tapşırılır. Bu rəsmlərin çəkilməsi uşaqların bu təmsilləri, uşaq şeirlərini nə dərəcədə anladıqlarını ortaya çıxarır.

Kitabxanada Mirzə Ələkbər Sabirin 160 illik yubileyi ilə əlaqədar ədəbi-bədii gecənin keçirilməsi məqsədəuyğundur. Çünki kitabxanada ədəbi-bədii gecələrin təşkili yubilyarın həyat və yaradıcılığı ilə daha yaxından tanış olmağa imkan verir. Gecəyə M.Ə.Sabirin yaradıcılığına yaxından bələd olan tanınmış yazıçılar, ədəbiyyatşünaslar, tənqidçilər, jurnalistlər dəvət oluna bilər. Ədəbi-bədii gecənin ssenarisini sizə təqdim edirik.

*Əvvəlcə iştirakçılara M.Ə.Sabirin həyat və yaradıcılığından bəhs edən* ***"Şairəm əsrimin ayinəsiyəm!"*** *adlı slayd təqdim olunur. Sonra isə aparıcılar səhnəyə daxil olurlar.*



**Aparıcı:** Salam hörmətli qonaqlar, əziz dostlar. Bu il real gerçəkliyi qəbul və təsdiq edən mütəfəkkir şair Mirzə Ələkbər Sabirin 160 yaşı tamam olur. M.Ə.Sabir XX əsr Azərbaycan ədəbiyyatının böyük simaları arasında öz dəstixətti ilə fərqlənən, poeziyamızın korifeyi, şeirimizdə azadlıq və istiqlal duyğularının tərənnümçüsü, satirik şair, görkəmli sənətkardır. Sabir milli inqilabi poeziyamızın banisi, əsl novator şair olmuşdur. Onun adı Nizami, Xaqani, Füzuli, Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə kimi dahi söz ustaları ilə bir sırada çəkilir. M.Ə.Sabir xalqın və xalq həyatının nəğməkarı idi, bütün varlığı ilə xalqın müsibət və ələmlərini, ehtiyac və arzularını hiss edib duyur, ehtirasla qələmə alırdı.

**Aparıcı:** Sabir bədii yaradıcılığa kiçik yaşlarında, Seyid Əzim Şirvaninin məktəbində oxuduğu zaman başlamış, ilk şeirlərini Şərqin Firdövsi, Sə`di, Füzuli kimi böyük klassiklərinin tə`siri ilə yazmışdır. O, həqiqi xalq şairi, yeni Azərbaycan şerinin yaradıcısıdır. Onun şeirləri yarandıqları zamanın ən doğru bədii sənədləri, XX əsrin əvvəlinin salnaməsidir. Əsrin nəfəsi ilə nəfəs alan şair şüurları, vicdanları hərəkətə gətirən qələmiylə həyatın ictimai fəzadlarını açıb göstərən etirazlı, təəssübkeş bir ədəbiyyatın gözəl nümunələrini yaratmışdır. Onun kinayələrində də, gülüşlərində də, taziyanələrində də böyük xalq dərdi, nisgili var. Sabir gülüşü, yumoru, rişxəndi gülüş xətrinə yüngüllük naminə yaranmayıb, xalq ağrı acılarına çarə tapmaq üçün bir dərmandır, şəfadır.

**Aparıcı:**Vətəndaş şair yolunu məhəbbəti naminə seçmiş Sabirin əsərləri insan ləyaqətini alçaldan hər bir şeyə qarşı mübarizədə ovxarlanmış silah idi və indi də öz kəsərini itirməmişdir. Bədii düşüncənin vüsət və dərinliyi, məhz satirada ifadə olunan ictimai amal və vicdanın ülviliyi və büllurluğu ilə Sabir bütünlüklə milli poeziyanın simvoludur, vətəndaş tipinin, milli qürur və bəşəri vicdan təcəssümü olan sənət və sənətkar tipinin yeni təzahürü, həqiqi davamıdır. Vaqif sadəliyi, Mirzə Cəlil demokratizmi, Füzuli psixilogizmi, Nizami epizmi hamısı M.Ə.Sabirdə üzvi vəhdət təşkil edir.

Sabir köhnəliyin vəlvələsiydi,
Milli idrakımın zəlzələsiydi.
Vətən fəxt etsə də şairlərilə
Sabir təkbaşına xalqın bəsiydi.

Xalq şairi Qabil

**Aparıcı:** M.Ə.Sabirin poeziyası Azərbaycan həyatının dərin, rəngarəng, ibrətli bədii təsvirini verərək ictimai inkişafın mütərəqqi və mürtəce meyllərini, xalqın dostunu və düşmənini müəyyənləşdirməkdə geniş kütlələrə, özəlliklə “Molla Nəsrəddin”in oxucularına yaxından kömək etmişdir. M.Ə.Sabir yaradıcılığında şifahi ədəbiyatdan, onun müxtəlif şəkillərindən-lətifələr, atalar sözlərindən ustalıqla istifadə etmişdir.

**Aparıcı:** Sabir şeirində əsrin qaranlıqlarını yararaq bu günə gəlib çıxan və hal-hazırda ictimai və bədii idrakın dərinliyinə yol tapan xüsusiyyət həqiqətin qüvvəsidir. Çoxcəhətli, dərin və sarsıdıcı həqiqət Sabir sənətinin mayasına hopmuşdur. Şairin məğrur, müdrik və müqtədir yaradıcılığı yalnız həqiqətin müqəddəs və nurlu mənası qarşısında başını əymişdir. Şair, yaradıcılıq ideallarının əsasını təşkil edən bu mühüm xüsusiyyəti bildirərək yazırdı:

Dəhr bir müddət oldu mənzilimiz,
Onda həll olmaz müşkilimiz.
Yaşadıqca çoxaldı düşmənimiz,
Nə edək, doğru söylədi dilimiz...

**Aparıcı:** Xalqın həyatı, mübarizəsi, mədəni yüksəlişi, müasirliyə doğru ciddi meyli, əsarətdən xilas olması, avamlıq və mövhumatdan bilmərrə əl çəkməsi, yeni əsrin tələbi ilə oynayıb həqiqi intibaha nail olması kimi vacib və real məsələlərin həllində o, hansı təxirəsalınmaz və zəruri imkanların mövcudluğunu, habelə qarşıda nə kimi vəzifələrin dayandığını göstərən həqiqətləri şərh edirdi.

Könül, ol talibi - hikmət - o hikmət kim, həqiqətdir,
Həqiqi hikmət ancaq hüsni-siyrətdən ibarətdir.
Həkimi-kamil olmaqçın deyildir çox bilik lazım,
Fəqət iqnai - nəfsə müqtədir olmaq kifayətdir.
Zəlalət əhli hər şeyi gəc anlar, gəc də hökm eylər,
O kəs kim, doğru yolu fəhm edər - əhli - fəzilətdir.

**Aparıcı:** Milli və xəlqi şair olan Sabir xalqın ictimai-sosial və psixoloji dərdlərini son dərəcə dəqiqliyi ilə və ürək yanğısıyla deyən, fəryadında gülən, gülüşündə ağlayan vətəndaş sənətkardır. Qüdrətli şair oxucusunu da bütün bu dərdlərin alovuna bürüməyi, onu da özü qədər alovlandırmağı bacarmışdır. Bəzən satiranı belə üstələyən, ürək parçalayan lirikasıyla Sabir bu gün də müasirdir.

**Aparıcı:**Başqa Azərbaycan sənətkarları kimi, Sabirin də qəzəllərinin ana xətti, leytmotivi məhəbbət duyğularının təsvir və tərənnümüdür. Şairin yetkin vaxtında, XIX əsrin axırı, XX əsrin əvvəlində yazdığı lirik şe`rlərinin bir qismi ictimai mövzudadır. Məhəbbət və gözəllik dünyasında yaşayan lirik qəhrəman mübarizə meydanında çarpışan müdrik bir vətəndaşdır. Onun arzusu "dilbəri-hürriyyətə" çatmaqdır. Mövcud cəmiyyətin ziddiyyətlərini dərindən başa düşən bu qəhrəman üçün həyat zindandır:

Mən belə əsrarı qana bilmirəm,
Qanmaz olub da dayana bilmirəm.
Neyləməli, göz görür, ağlım kəsir,
Mən günəşi göydə dana bilmirəm.
Derlər usan, hərzəvü hədyan demə,
Güc gətirir dərd, usana bilmirəm!

**Aparıcı:**Şairə görə insanları dərdə salan dünyada insan ya avam olmalı, şüursuz, idraksız, duyğusuz bir ömür keçirməli, ya da mübarizə aparmalı, həqiqi həyata çatmalıdır. Sabirin lirik qəhrəmanı min bir əzab və əziyyətə düşsə də, şüurlu, düşüncəli bir həyat, işgüzar, mübariz bir həyat keçirməyi üstün

tutur. Şüur, düşüncə, duyğu isə onun nəzərində həyat, xoşbəxtlik uğrunda mübarizə üçün əsas amillərdəndir. Sabir “Ruhum” şe`rində özünün azadlıq idealını, ictimai amalını müstəqim tərənnüm yolu ilə verir. O, özünün gələcək xoşbəxtliyini azadlıqda görərək yazır:

Mən gedərəm, var olsun amalım!
Yaşasın şəhriyari-hürriyyət!

**Aparıcı:**Bu azadlıq idealı Sabir dünyagörüşündəki qüvvətli humanizmlə, insanın yer üzündə azad, fərəhli, yaradıcı bir həyat qurması haqqında arzularla əlaqədar olmuşdur. Şairin bə`zən, hətta azadlıq və insanlıq məfhumlarını açıqcasına eyniləşdirməsi buradan irəli gəlir:

Kim ki, insanı sevər, aşiqi-hüriyyət olur,

Bəli, hürriyyət olan yerdə də insanlıq olur.

**Aparıcı:**Ancaq azadlıq olan yerdə həqiqi insanlıqdan söhbət gedə bilər, ancaq azadlıq olan yerdə insan öz yüksək və şərəfli adına layiq həyat qura bilər, insan şəxsiyyəti qol-qanad açıb, hərtərəfli inkişaf edər. Bu, Sabirin böyük ictimai idealı idi. Mollaxana təhsilindən bir fayda almayan Sabir sonralar İslam dininin əsil həqiqətlərini öyrənərək, heç də bu dinin əvvəllər ona öyrədilən xurafatla əlaqəsi olmadığını görür. Bu işdə ona müəllimi Seyid Əzim Şirvani də yol göstərənlərdən biri olur. Sabir İslamı bu dinin tələb etdiyi kimi elm və hikmətlə öyrənməyə və həyatında tətbiq etməyə başlayır. Sabir, “Molla Nəsrəddinin 10-cu nömrəsində "Qızdırmalı" imzası ilə yazılan şeirlərə cavab - şeirində belə yazır:

Madam ki, hamiyani zülmət,
Xoşlar ki, davam edə cəhalət:
Heyhat bilirmi onda millət;
Tövhid nədir və ya nübüvvət?!

**Aparıcı:**Sabirin satiralarında məktəbə, ictimai-mədəni və texniki tərəqqiyə, milli-mənəvi özünüdərkə dəvət motivi ön mövqeyə çəkilmişdir. Bu məqamda şairin seçdiyi oyanmış qəhrəman "Qanma!" əmrinə "Qabili-imkanmı olur qanmamaq?" cavabını verir. Milli oyanışa nail olmağın yolunu şair elmə və təhsilə yiyələnməkdə, özünüdərketmədə, dünya işlərindən baş çıxarmaqda görür. Ona görədir ki, M.Ə.Sabirin yaradıcılığında məktəb, maarifçi ziyalı, məktəbə gedən uşaq, elmə, təhsilə köhnəpərəst münasibətin tənqidi mühüm yer tutur.

**Aparıcı:**"Bilməm nə görübdür bizim oğlan oxumaqdan", "Neçin məktəbə rəğbətim olmayır", "Uşaqdır", "Uçitellər", "Müəllimlər syezdi", "Oxutmuram, əl çəkin", "Ürəfa marşı" və s. kimi satiralarında elmsizliyin, savadsızlığın bəlaları, məktəbin və təhsilin düşmənlərinin ifşası, yalnız elm öyrənməklə, təhsil almaqla özünüdərkin isbatı kimi öz dövrü üçün çox aktual olan məsələlərdən söz açılmışdır. Məhz buna görədə o dövrdə də indiki kimi Sabir bir şair kimi, həm də əsl insan kimi sevilmişdir. Sabirin bu maarifçilik fəaliyyəti bu gündə aktual və gərəklidir.

**Aparıcı:** Sabir cəmi əlli il yaşamış, yalnız 5-6 il ardıcıl ədəbi yaradıcılıqla məşğul olmuşdur. Lakin bu qısa müddət ərzində elə böyük ədəbi irs qoyub getmişdir ki, bu irs təkcə bizim

ədəbiyyatımız üçün deyil, bütün Şərq poeziyası üçün əvəzsiz bədii xəzinəyə çevrilmişdir. Biz bu gün canlıların canlısı, dahi şair və mütəfəkkir Sabirlə üz-üzə dayanmışıq.Onun nüfuzedici gözlərindəki ağıl və hikmət nuru, sənət gülüstanından ətirlər saçan yüksək seriyyət, amalından şölələnən vətəndaşlıq-məsləkdaşlıq alovu bizi yeni, böyük və müqəddəs əməllərə səfərbər edir.

**Aparıcı:**Sabir:"Mən gedirəmsə, məramım yenə dünyada durar!"-demişdir. İndi şairin məramı ilə bərabər, tərənnüm etdiyi məhəbbəti də, cəsarəti də, qeyrəti də fəaliyyəti də bizimlə bərabər durmaqdadır və gələcəkdə də ucalığında və əzəmətində qalacaqdır. Sabirə əsrin özü dərin bir ehtiyac hiss edirdi. Özgələrin təsirilə öz kökünə, milli ənənələrinə və milli mövcudluğuna qənim kəsilmiş xalqın dərdini göz yaşları içində gülüşlə qələmə alan Sabir konkret olaraq heç bir fəlsəfi konsepsiyanın təbliğatçısı və tərəfdarı deyildi.

**Aparıcı:**Seyl-tən eylə təməvvüclə alıb dövr bərim,
Bənzərəm bir qocaman dağa ki, dəryada durar.
Nə qəm, uğratsa da bir gün məni ifnayə zaman,
Mən gedərəmsə, məramım yenə dünyada durar.

Sənətkar ölməzliyi və əbədiliyi haqqında belə səlis, obrazlı şeirə dünya poeziyasında nadir hallarda təsadüf olunar. Böyük inam və əqidədən yoğrulan bu misralar bir də onu sübut edir ki, əsl sənətkar ölmür, ölən - torpağa kömülən onun cismidir. Ruhu, xatirəsi, poeziyası isə daim yaşayır.

**Ədəbiyyat siyahısı:**

**Əsərləri**

Əsərləri. - Bakı : Atilla, 2003. - 137 c.

Hophopnamə. - Bakı : Çaşıoğlu, 2004. - 528 s. : portr. - (Azərbaycan Ədəbiyyatı).

Hophopnamə. - Bakı : Təhsil, 2012. - 552 s.

Hophopnamə : 2 cilddə. I cild. - Bakı : Şərq-Qərb, 2004. - 480 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Hophopnamə : 2 cilddə. II cild. - Bakı : Şərq-Qərb, 2005. - 384 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Hophopnamə. - Bakı : Turan Nəşrlər Evi, 2002. - 368 s. : rəngli il

Yaz günləri : şeir. - Bakı : Çaşıoğlu, 2001. - 4 s. : rəngli şək.

***Kitablarda***

Ağacların bəhsi ; Qarınca : təmsillər // Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Pedaqoji Universitet, 2012. - S.161-163. - XIX əsrin sonu və XX əsrin əvvəlində uşaq ədəbiyyatı.
Məktəb uşaqlarına töhfə ; Yalançı çoban ; Qoca bağban və s. : şeirlər və mənzum hekayələr // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə - Bakı : Öndər, 2004. - C.2. - S. 7-16.

Qoca bağban ; Uşaq və pul ; Artıq alıb, əskik satan tacir : mənzum hekayələr // Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Pedaqoji Universitet, 2012. - S.159-161. - XIX əsrin sonu və XX əsrin əvvəlində uşaq ədəbiyyatı.

Satiralar ; Taziyanalar ; Müxtəlif şeirlər ; Uşaqlara hədiyyə //XX əsr Azərbaycan şeiri antologiyası : (1905-1920-ci illər). - Bakı : Şərq-Qərb, 2005. – S.33-115.

Uşaq və buz // Dərsə gedən bir uşaq : şeirlər - Bakı : Altun Kitab, 2013. – S. 11. - (Mənim ilk kitabım : 5-6 yaş).

**Elektron resurslar**

Hophopnamə [Elektron resurs] : Poeziya / M. Ə. Sabir ; məsl. L. Məmmədova [et al.] ; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Elektronik mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : birreng. : il. ; 12 sm. - (Nizami layihəsi).

**Dövri mətbuatda**

Cütçü ; Uşaq və pul ; Yalançı çoban və b. şeirlər // Yeni Azərbaycan. - 2010. - 5 iyun. - № 99. - S. 10.

Görmə! - Baş üstə yumaram gözlərim... ; Fisincan ; Mən belə əsrarı qana bilmirəm... və b. : şeirlər // Qobustan. - 2012. - № 1. - S. 15-16.

Məktəbə çağırış // Savalan. - 2012. - 18 - 20 sentyabr. - № 66. - S. 1.

Söz : şeir // Füyuzat. - 2007. - № 2(34). - S.47.

Uşaq və pul // Göyərçin. - 2012. - **№ 9**. - S. 3.

**Haqqında**

Bayramoğlu A. Mirzə Ələkbər Sabir : Həyatı və əsərləri. - Bakı : Qismət, 2003. - 320 s.

Cəfər Ə. Mirzə Ələkbər Sabir şeirinin qafiyə lüğəti. - Bakı : [s. n.], 2005. - 128 s.

Əhmədov B. Füyuzat və füyuzatçılar // XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə : dərslik. - Bakı : Elm və təhsil, 2011. - C.1. - S. 47-55.

Əhmədov B. Mirzə Ələkbər Sabir // XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə : dərslik. - Bakı : Elm və təhsil, 2011. - C. 1. - S. 282-300.

Əlioğlu M. Həqiqət nəğməkarı : Mirzə Ələkbər Sabir haqqında // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1.- S. 118-123.

Əlioğlu M. Məfkurə dostları : Mirzə Ələkbər və Mirzəli Möcüz // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1. - S. 124-140.

Əlioğlu M. Məslək qardaşları : Mirzə Ələkbər Sabirin və Cəlil Məmmədquluzadənin məsləkdaşlığı, əqidə dostluğu haqqında // Darıxan adamlar. 2 cilddə. - Bakı : Təhsil, 2009. – C.1. - S. 336-359.

Əliyev Z. Sabir təsviri sənətdə. - Bakı : Təhsil, 2012. - 168 s.

Əsgərli F. Mirzə Ələkbər Sabir (1962-1911) : haqqında və əsərlərindən nümunələr // Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Pedaqoji Universitet, 2012. - S.158. . - XIX əsrin sonu və XX əsrin əvvəlində uşaq ədəbiyyatı.

Hacıyev A. Ələkbər sabir Tahirzadə (1862-1911) // Azərbaycan uşaq ədəbiyyatı tarixi. – Bakı : Təhsil,2004. – S.82-87.

Məmmədov A. Sabir Bakıda. - Bakı : Təhsil, 2012. - 152 s.

Məmmədov K. Sabir //Azərbaycan yazıçılarının həyatından dəqiqələr. - Bakı : Hədəf Nəşrləri, 2013. – S.108-120.

Mirzə Ələkbər Sabir- 150 : Biblioqrafiya. - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2012. - 384 s.

Mümtaz S. Sabir haqqında xatirələr : məqalə // Azərbaycan ədəbiyyatının qaynaqları. - Bakı : Avrasiya Press, 2006. - S. 427-437.

Mustafayeva X. Mirzə Ələkbər Sabir (1862-1911) // Azərbaycan uşaq ədəbiyyatı : Ali və orta ixtisas məktəbləri üçün dərs vəsaiti. - Bakı : Elm, 2011. - S. 122-126.

Namazov Q. Mirzə Ələkbər Sabir (1862-1911) // Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. - S. 125-133.

Nəbiyev B. Mirzə Ələkbər Sabir Tahirzadə Şirvani // Şamaxı torpağının yetirdiyi böyük Azərbaycan şairləri : elmi-kütləvi oçerklər. - Bakı : Ozan, 2012. – S. 86-131.

Sadıq F. Əbədi ziyarətgah : Mirzə Ələkbər Sabir haqqında // Taleyin acığına. - Bakı : Çinar-Çap, 2003. - S. 243-245.

Soltanov M. Mirzə Ələkbər Sabir (1862-1911) // Şair və yazıçılarımızın həyatından maraqlı anlar. – Bakı : 2010. – S.88-96.

Yusifoğlu R. Mirzə Ələkbər Sabir // Uşaq ədəbiyyatı. – Bakı : Şirvannəşr, 2006. – S.48-52.

Zamanov A. Sabir və müasirləri // Seçilmiş əsərləri - Bakı : Çinar-çap, 2003. – S.17-148.

***Sabir obrazı bədii ədəbiyyatda***

Cəfər Ə. Ölüm qorxurdu ; Dəydikcə köksünə tənələr seli : Mirzə Ələkbər Sabirə həsrə olunmuş şeirlər // Ədəbiyyat qəzeti. - 2010. - 11 iyun. - № 23. - S. 2.

Dağlı R. Ay Sabir : şeir // Ulduz. - 2007. - № 2. - S.70.

Əsgəroğlu Ə. Gülüş necə doğdu göz yaşlarından?. : şeir // Ədəbiyyat qəzeti. - 2006. - 2 iyun. - S.5.

Etibar İ. Sabir və Hadinin şəkli önündə // Azərbaycan. – 2012. – № 2. – S.147-148.

Hadi M. Sabirin yadigarına ithaf : şairi – zindəruh // Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, 2005. – S.204.

Həsənbəy Y. Böyük Sabir : şeir // Azərbaycan. – 2012. – № 1. – S.92.

Həsənli A. Böyük Sabirin şeri // Azərbaycan. - 2011. - № 5. - S. 64.

Hüseyn M. Hophop : hekayə // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 clldə. – Bakı : Öndər, 2005. - III c. - S. 152-168.

Kərimzadə F. "Tutdum orucu İrəmazanda" ; "Hophop" : Mirzə Ələkbər Sabir haqqında hekayələr // Seçilmiş əsərləri. 5 clldə. – Bakı : Ağrıdağ, 2007. - V c. - S. 194-202.

Kürçaylı Ə. Sabir bağında : şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 381.

Kürdoğlu H. Ey Sabir : şeir // Yurduma qurbandır sözüm. - Bakı : Sabah, 2005. - S. 110-111.

Rüstəmxanlı S.M.Ə.Sabirin məzarı üstündə : şeir // Seçilmiş əsərləri. - Bakı : "Şərq-Qərb", 2004. - S. 59-60.

Rza R. Onun qəlbi ; O bizim sıralarımızdadır : Mirzə Ələkbər Sabir haqqında // Seçilmiş əsərləri. 5 clldə. V c. - Bakı : Öndər, 2005. - S. 145-152.

Rza R.  Xalq şairi : Mirzə Ələkbər Sabir haqqında poema // Seçilmiş əsərləri. 5cilddə. - Bakı : Öndər, 2005. – C. 4. - S. 165-174.

Sadıq F. Ömrün bir günü : Böyük Sabirin şərəfinə : poema. – Bakı : Şirvannəşr, 2002. – 16 s.

Səfərli İ. Sabirim : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 171-172.

Səhhət A. Sabir : şeir // Seçilmiş əsərləri. – B.: Lider, 2005. – S.55. ; Azərbaycan. - 2006. - №10. - S.3-4.

Səhhət A. Sabir, ey şairi-dühapərvər : şeir // Seçilmiş əsərləri. – Bakı: Lider, 2005. – S.53-54.

Şaiq A. Sabirə : şeir // Seçilmiş əsərləri. 3cilddə. II c. – Bakı: Avrasiya Press, 2005. – S.33-35.

Təhməz B. Sabir şeiri : şeir // Seçilmiş əsərləri. - Bakı : Araz, 2010. - S. 170.

Təhməz B. Sabir şeiri : şeir // Seçilmiş əsərləri. - Bakı : Araz, 2010. - S. 170.

Vahabzadə B. Ağlar-güləyən : poema // Seçilmiş əsərləri. İki cilddə. – Bakı : Öndər, 2004. – C.2. – S. – S. 96-116.

Vahabzadə B. Rəhmət sənə, a Sabir : şeir // Təzadlar. - 2006. - 15-22 avqust. - S.4.

Xəzri N. Dağlar dağımdır mənim : poema. // Seçilmiş əsərləri. 2 cilddə. II c. – Bakı : Gənclik,1974. – S.5-22.

Yaqub Z. Füzuli-Sabir : şeir // Seçilmiş əsərləri. 2 cilddə. C.II. - Bakı : Şərq-Qərb, 2006. - S. 142.

**Rus dilində**
**Əsərləri**
Избранные произведения : поэзия. - Баку : Лейла, 2008. - 320 с.

Избранные произведения : поэзия. - Баку : Чашыоглу, 2007. - 248 с.

Избранные сатиры. - М. : Художественная литература, 1962. - 252 с.

Избранные сатиры : перевод с азербайджанского. - М. : Гослитиздат, 1962. - 252 с.

Детям : стихи. - Баку : Детюниздат, 1962. - 32 с.

Мальчик и лед : художественная лит-ра. - Баку : Гянджлик, 1979. - 8 с.

Подарок школьникам : поэзия. - М. : Детская литература, 1946. - 43 с.

Сатиры и басни : поэзия - М. : Детская литература, 1954. - 78 с.
Избранное : художественная лит-ра. - Баку : Азернешр, 1962. - 246, [1] с.

Сатиры и лирика : юмор, сатира. - М. : Гослитиздат, 1954. - 296 с.

***Haqqında***

Мирахмедов, А. Ф. Плачущий Смехач : жизнь и творчество М.А. Сабира. - М. : Художественная литература, 1989. - 319 с.

Мирахмедов А.М. Поэт призванный революцией : Жизнь и творчество М.А. Сабира - Баку : Азернешр, 1964. - 367 с.

Султанова Г. Поэзия М. А. Сабира в русских переводах : литературная критика. - Баку : Элм, 1979. - 112 с.

Шариф А. Жизнь и поэтическое творчество Сабира : литературная критика. - М. : [б. и.], 1951. - 31 с.

Джафаров М. Мирза Алекпер Сабир. - Баку : Азернешр, 1962. - 28, [3] с. - (О жизни и деятельности поэта).

***İngilis dilində***

Mirza Alakbar Sabir. - Baku : Chashioghlu, 2014. - 66 p. : portr., photo, col.pic. - (Azerbaijani Classics).

Mirza Alakbar Sabir : Satiric poet. 1862-1911. - Baku : "Khan" Publishing House, 2015. - 36 p. : pic., col. pic.

# Böyük satira  ustası Mirzə Ələkbər Sabir

(metodik vəsait)

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**